# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat məruzəsi

(Əvvəli 6-cı səhifədə).

**Hörmətli yığıncaq iştirakçıları!**

Nazirlər Kabinetinin iclasındakı yekun nitqində cənab Prezident İlham Əliyev ilin sonuna qədər iqtisadi artımın yüksək templərinin və makroiqtisadi sabitliyin saxlanması, dövlət investisiya proqramının, yeni infrastruktur, o cümlədən sosial layihələrin icrası ilə bağlı işlərin görülməsinin vacibliyini bildirmişdir. Bölgələrin qaz, elektrik enerjisi və içməli su ilə təminatının daha da yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verən cənab Prezident İlham Əliyev bu layihələrin tam icrası məqsədilə müvafiq vəsaitin ayrılacağını da qeyd etmişdir. Ölkədə meliorasiya tədbirlərinin davam etdirildiyini, sənayeləşmə prosesinin uğurla getdiyini deyən dövlətimizin başçısı yeni ixrac bazarlarının tapılması, rəqabətədavamlı məhsulların istehsal olunması və yeni iş yerlərinin yaradılması sahəsinə də toxunmuşdur.

Qeyri-neft sektorunun, sahibkarlığın inkişafı, ölkədə vergi daxilolmalarının tam təmin edilməsi, bu sahədə qanunsuz halların qarşısının alınması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı görülən işlərdən danışan dövlətimizin başçısı yaxın vaxtlarda dərman preparatlarının qiymətlərinin tənzimlənəcəyini və bu sahədə şəffaflığın təmin olunacağını da bildirmişdir.

Çıxış zamanı "Birinci Avropa Oyunlarının keçirilməsi tarixi hadisə idi. Bu Oyunlar Olimpiya Oyunları səviyyəsində keçirildi, bu isə ölkəmizin gücünü və potensialını göstərdi"—deyən dövlətimizin başçısı 21-i qızıl olmaqla ümumilikdə 56 medal qazanan idmançılarımız Azərbaycanın həm də idman ölkəsi olduğunu sübut etdilər və birinci Avropa Oyunları xalqımızın və dövlətimizin təntənəsinə çevrildiyini diqqətə çatdırdı.

**Hörmətli yığıncaq iştirakçıları!**

2015-ci ilin birinci yarısında Qəbələ rayonunda görülən işlər barədə Sizə qısa məlumat verdim. Lakin görəcəyimiz işlər daha çoxdur.

Sonda bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi üçün bütün qüvvələri səfərbər edəcək, yeni nailiyyətlərin qazanılması sahəsində fəaliyyətini genişləndirəcək, üzərinə düşən vəzifələrin icrası istiqamətində bütün lazımi tədbirləri həyata keçirəcəkdir.

İcazə verin, Sizin hər birinizin, bütün qəbələlilərin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarını əmin edim ki, biz həmişə olduğu kimi 2015-ci ili də yüksək uğurla başa vuracaq, xalqımıza, vətənimizə, dövlətimizə sədaqətlə xidmət edəcəyik.

# Dünya musiqi ictimaiyyətinin diqqəti yenidən Qəbələyə yönəlmişdir

(Əvvəli 2-ci səhifədə).

F. Bədəlbəyli çıxışına davam edərək dedi: "Qəbələ Beynəlxalq Musiqi Festivalı təkcə sadə musiqi festivalı deyil, bu festival həm də möhtəşəm musiqi bayramıdır. Bayram yeddinci ildir ki davam edir və heç vaxt dünya şöhrətli musiqi xadimlərinin diqqətindən kənarda qalmamışdır. Bu il isə festivala gələn qonaqların sayı daha da çoxdur. Onların bir çoxu mənə deyir ki, çox təəssüf ki, biz indiyə qədər belə ecazkar, füsunkar təbiəti, mehriban insanları olan ölkədə olmamışıq. İndi biz özümüzü sanki əfsanələr, nağıllar aləmində olduğumuz kimi hesab edirik. Belə gözəl, əsrarəngiz təbiəti, mehriban insanları olan ölkədə olmamağımıza görə çox məmnunuq".

Möhtərəm professor Qəbələdə regional və beynəlxalq tədbirlərin keçirilməsinə hər cür şərait olduğunu qeyd etdi və ümidvar olduğunu bildirdi ki, əvvəlki illərdə olduğu kimi bu ildə Qəbələ VII Beynəlxaq Musiqi Festivalı uğurla başa çatacaqdır.

Festivalın açılış mərasimindən əvvəl saat 18:00-da kamera musiqi axşamı təşkil olunmuş, proqramda A. Vivaldinin, İ. Sammartinin, V. A. Mortsartın əsərləri səsləndirilmişdir. Həmin gün saat 21:00-da rəsmi açılış mərasimindən sonra İtaliyanın Flarmonik orkestrinin konserti olmuşdur. Konsert Ü. Hacıbəylinin "Koroğlu" operasına uvetüra ilə açılmış, Operadan «Həsən xanın ariyası» dinlənilmiş, sonra Rossininin, C. Puççinin, C. Verdinin, M. Maqomayevin və bir sıra dünya şöhrətli bəstəkarların əsərləri səsləndirilmişdir.

İyulun 26,27,28-də saat 12:00, 18:00 və 21:00-da maraqlı konsert proqramları davam etmişdir. İyulun 29-da isə açıq səhnədə Muğam axşamı oldu. Muğam axşamında Ehtiram Hüseynovun, Arzu Əliyevanın, Nigar Şabanovanın, Abgül Mirzəyevin ifalarında Azərbaycan xalq mahnıları, muğam və təsniflər ifa olundu.

Hər bir ifa tamaşaçıların gurultulu alqışları ilə qarşılandı.

**Nadir ATAKİŞİYEV.**

*QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2015-ci İLİN AVQUST AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Qaradeyn kəndi | 04.08.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Qəmərvan kəndi | 11.08.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Daşca kəndi | 18.08.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Quşlar kəndi | 25.08.2015 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# Hotellərin VİP personalına sertifikatlar təqdim edildi

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzi ilə Qəbələdə fəaliyyət göstərən 5 ulduzlu hotellər («Qafqaz» Sport Hotel, «Qafqaz» Resort Hotel, «Qafqaz» Riverside Hotel, «Qafqaz» Karvansaray Hotel) arasında birgə əməkdaşlıq çərçivəsində hotellərin VİP personalının ingiliscə danışıq imkanlarının artırılması istiqamətində ingilis dili kursları başa çatdı. Bu münasibətlə Heydər Əliyev Konqres Mərkəzində sertifikatların təqdim olunma toplantısı təşkil edildi.

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin icraçı direktoru Anar Məhərrəmov iştirakçıları salamladıqdan sonra QHT turizm sektoru, otelçilikdə personalın xarici dilləri bilməsinin vacibliyindən, Resurs Mərkəzi ilə hotellər arasında birgə uğurlu əməkdaşlıq haqqında geniş məlumat verdi.

«Qafqaz» Resort Hotelin ictimai iaşə şöbəsinin meneceri Ünsal Yaqucmen kursun yüksək səviyyədə təşkil olunduğunu, birgə əməkdaşlıq barədə və gələcəkdə bu istiqamətdə kursların təşkili yönümündə birgə əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini diqqətə çatdırdı.

Sonda testin nəticələrinə əsasən uğurlu nəticə göstərən iştirakçılara sertifikatlar təqdim edildi.

**Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin mətbuat xidməti.**

*2 avqust Azərbaycan Kinosu Günüdür*

# 117 yaşlı Azərbaycan kinosu

117 yaşı olan Azərbaycan kinosu bir çox uğurlar qazanıb. Xatırladaq ki, 1900-cu ildə Parisdə keçirilən ümumdünya sərgisində nümayiş etdirilən filmlərin arasında 1898-ci ildə Bakıda lentə alınan (bu, Azərbaycanda kino sənətinin əsasının qoyulduğu tarixdir), «Bibiheybətdə neft fontanı yanğını» və «Balaxanıda neft fontanı» xronikaları da vardı.

Sonrakı illərdə ekranlaşdırılmış «Mavi dənizin sahilində», «Kəndlilər», «Arşın mal alan», «O olmasın, bu olsun», «Uzaq sahilllərdə», «Bir cənub şəhərində», «Şərikli çörək», «Uşaqlığın son gecəsi», «Gün keçdi», «İstintaq», «Babək», «Dənizi fəth edənlər» və «Xəzər neftçiləri haqqında dastan» adlı Azərbaycan bədii-filmləri keçmiş SSRİ məkanında, eləcə də əcnəbi ölkələrdə maraqla qarşılanmış, müxtəlif beynəlxalq kinofestivaların laureatı olmuş və kinomatoqrafiyanın inkişafında mühüm rol oynamışdır.

Digər sahələrdə olduğu kimi, kino sənətinin inkişafında da xalqımızın ümummilli lideri Heydər Əliyevin xidməti böyükdür. Azərbaycan xalqının taleyində, dövlətçiliyimizin tarixində, milli kinomuzun inkişafında silinməz izlər qoyan ulu öndər Heydər Əliyevin 18 dekabr 2000-ci il tarixli sərəncamı ilə hər il 2 avqust ölkəmizdə Azərbaycan Kinosu Günü kimi qeyd olunur.

XIX əsrin ən böyük kəşfləri ilə bir sırada dayanan kino tarixin texniki ixtirasıdır. O, insan zəkasının ən müxtəlif sahələrini özündə birləşdirən sintetik bir sənət kimi təşəkkül tapıb. Kino sənəti kəşf olunana qədər fotoqrafiyanın ixtirası 1839-cu ildə Fransada qeydiyyatdan keçib.

(Ardı 8-ci səhifədə).

# Əhalinin nəzərinə!

Rayonun Qaş massivinin «Kotançı» adlanan ərazisində biçilmiş taxıl sahəsində yanğın hadisəsi baş vermişdir. Yanğının geniş əraziyə yayılmasının qarşısı alınmış, tamamilə söndürülmüşdür.

Baş vermiş hadisə ilə əlaqədar cinayət işi qaldırılmışdır. Təqsirkar şəxslər cinayət məsuliyyətinə cəlb ediləcəklər.

Fermerlərin, taxıl əkini ilə məşğul olan sahibkarların, fiziki şəxslərin nəzərinə çatdırılır ki, biçilmiş sahələrin yandırılması yolverilməzdir.